# MÜSLÜMOV VALEH ƏLİRZA OĞLU



Valeh Əlirza oğlu Müslümov 1968-ci ilin sentyabr ayının 2-də Lerik rayonunda doğulmuşdur. 1975-ci ildə 2 saylı Lerik rayon orta məktəbinin birinci sinfinə getmiş, 1983-cü ildə səkkizinci sinfi bitirmişdir. Elə həmin il V.Müslümov Sumqayıt şəhər 17 saylı texniki-peşə məktəbində dülgər ixtisasına yiyələnmişdir. 1984-cü ildə 2 saylı Sumqayıt Tikinti Trestinin Səyyar Mexanikləşdirilmiş dəstəsində çalışır. 1986-cı ildə V.Müslümov hərbi xidmətə çağırılır. 1988-ci ildə hərbi qulluqdan təxris olunur və Sumqayıta qayıdır. Torpaqlarımızın erməni quldurları tərəfindən işğal edilməsinə dözə bilməyərək, 1991-ci ilin avqust ayından DİN-nin Xüsusi Təyinatlı Milis Dəstəsində xidmətə başlayır. Şuşa, Xocalı, Tovuz və Qubadlıda keçirilən döyüş əməliyyatlarında iştirak edir, mərdliklə vuruşur. Füzuli rayonu ərazisində erməni quldurlarının mühasirəsində olan cəsədlərin çıxarılmasında həyatı bahasına riskə gedir. 1992-ci ilin aprel ayının 14-də Marquşevan kəndində gedən döyüş zamanı erməni yaraqlıları xeyli texnika və canlı qüvvə ilə Marquşevana hücuma keçirlər. Valeh öz dəstəsi ilə ilk olaraq döyüşə girir. O, həm düşmənlə vuruşur, həm də yaralı dostlarını döyüş meydanından uzaqlaşdırırdı. Bu qeyri-bərabər döyüşdə Valeh də yaralandı. Buna baxmayaraq 11 nəfər yaralı döyüşçünü ölümün pəncəsindən xilas etdi. Lakin, öz həyatını qoruya bilmədi. V.Müslümov Lerik rayonunda dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı Fərmanı ilə Müslümov Valeh Əlirza oğluna (ölümündən sonra) "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Vaxtilə təhsil aldığı Lerik rayonundakı 2 saylı orta məktəb Qəhrəmanın adını daşıyır.